

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı


**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 196 (23.608)

*13 noyabr 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik


*Rəsmi xronika*

Prezident İlham Əliyev rəsmi "Facebook" səhifəsində Azərbaycan Respublikası Konstitusiyasının 25 illiyi ilə bağlı paylaşım edib.

Xatırladaq ki, müstəqil Azərbaycanın ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi yolu ilə qəbul edilib. Dövlətimizin Əsas Qanunu həmin il noyabrın 27-də qüvvəyə minib.



## Naxçıvanın blokadadan xilası Azərbaycan Prezidentinin böyük diplomatik qalibiyyətidir



*Azərbaycan tarixi günlərini yaşayır. Son iki gündə Azərbaycan və dünya mediasında ən çox müzakirə olunan mövzulardan biri də ölkəmizin Ermənistan üzərində qələbəsi və bu qələbənin hüquqi əsasını müəyyən edən, Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyası Prezidentinin imzaladığı üçtərəfli bəyanatdır.*

Bəyanatın önəmli hissələrindən biri də 9-cu bənddir ki, bu bənddə Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə kommunikasiyalarının bərpası nəzərdə tutulur. Artıq hər birimizə aydındır ki, məlum bəyanatın imzalanmasından dərhal sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa müraciət edərək həmin bəyanatın mətni ilə hər kəsi tanış etdi, mətnin Naxçıvanla bağlı hissəsini xüsusi vurğuladı. Həmin hissəni yenidən xatırlayaq: ***"...Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu, əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim, şadam ki, qəbul olundu. Beləliklə, Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi. Ona görə bu bəndi, xüsusilə qeyd etmək istərdim və əziz naxçıvanlıları da bu hadisə münasibətilə təbrik etmək istərdim…"***

Qeyd edək ki, Naxçıvanla bağlı belə bir mühüm qərarın II Qarabağ müharibəsinin yekunlarına dair tarixi sənəddə əks olunması çox böyük əhəmiyyət daşıyır. Son bir neçə gün ərzində, xüsusilə Azərbaycan və Türkiyədə həm rəsmi, həm də qeyri-rəsmi səviyyədəki görüşlərdə, eyni zamanda kütləvi informasiya vasitələrində gedən müzakirələrdə bu məsələnin strateji əhəmiyyəti vurğulanır, gələcək iqtisadi, siyasi üstünlüklərindən, Türk dünyasına verəcəyi töhfələrdən bəhs olunur. Ermənilərə isə bu günlərdə təkcə işğaldan azad olunan ərazilər deyil, həm də Naxçıvanla bağlı qəbul edilən qərarlar məğlubiyyət acısı yaşadıb. Əlbəttə, bu haqda hələ onlar çox danışacaqlar, elə erməni politoloq Andranik Miqranyan kimi. "Moskovskiy komsomolets" qəzetinə müsahibəsində o deyir: "Hər yer qaytarılır. Rusiya sülhməramlıları Ermənistanla Qarabağı birləşdirən beş kilometrlik zolağa müvəqqəti olaraq nəzarət edəcəklər. Sonradan Şuşa kənarından yeni yol çəkiləcək, ancaq bu yol da de-yure Azərbaycanın tərkibində olacaq. Erməni tərəfinin nəzarətində heç nə qalmır – 5 kilometrlik zolaq, o da hüquqi cəhətdən Azərbaycanın ərazisidir. İmzalanan bəyanat razılaşma deyil, Ermənistanın total təslim olmasını əks etdirən aşağılayıcı sənəddir. Naxçıvana Ermənistandan keçən quru yolunun razılaşmaya daxil edilməsi isə, ümumiyyətlə, fəlakətdir".

Hamımıza məlumdur ki, ötən əsrin 90-cı illərində ermənilər tərəfindən Azərbaycanı Naxçıvanla birləşdirən yeganə dəmiryol və enerji xətləri iflic vəziyyətinə salındıqdan sonra muxtar respublika blokada vəziyyətinə salınmışdı. 28 ilə yaxın bir dövrdə aparılan bütün danışıqlarda Naxçıvanla əlaqələrin bərpası hər zaman ermənilər üçün bir təsir vasitəsi idi. Onlar Naxçıvanla əlaqələrin münaqişə zonasından kənarda yerləşdiyini əsas gətirərək bu məsələnin danışıqlar predmeti olmayacağını hər addımda dilə gətirirdilər, hətta xarici havadarlarını da buna inandıra bilirdilər. Bunu tarixi Ki-Uest danışıqlarının təcrübəsindən də bilirik. Halbuki Naxçıvanın blokadası məlum münaqişənin nəticəsi idi. Buna görə də Naxçıvanla Azərbaycanın əsas əraziləri arasında kommunikasiyaların bərpası o zaman mümkün görünürdü ki, Azərbaycan Ermənistan üzərində Böyük Qələbə çalsın və bu gücündən istifadə edərək Naxçıvan məsələsini qarşı tərəfə anlaşma şəklində deyil, diktə şəklində çatdırsın. Sadə dildə desək, Ermənistanı buna məcbur etsin. Və tarix də sübut etdi ki, bu gözləntilər əbəs deyil. Cənab İlham Əliyev iki gün bundan əvvəl Qalib Lider kimi bu vəzifənin öhdəsindən şərəflə gəldi. Özünün də yuxarıda gətirdiyimiz sitatda qeyd etdiyi kimi dövlətimizin başçısı bu bəndin bəyanata salınmasına təkidlə nail olmuşdur.

Həmin bəndin preampula hissəsinə nəzər salaq:

*9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir, Ermənistan Respublikası vətəndaşlarının nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verilir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.*

*Bəli, qarşıda görüləcək işlər çoxdur. Yeni kommunikasiyaların bərpası Naxçıvanı təkcə Azərbaycanın digər bölgələri ilə deyil, həm də qardaş Türkiyə Respublikasını Türk dünyası ilə birləşdirir. Yeri gəlmişkən bu yaxınlarda Türkiyə Respublikasının keçmiş Baş naziri Binəli Yıldırımın Bakıda və Naxçıvanda olması və səfər əsnasında muxtar respublika ilə Türkiyə arasında dəmiryol xəttinin inşası ilə bağlı görüləcək işlərə bir daha toxunması Naxçıvanın əhəmiyyətini daha da artıracaq. Bir sözlə, Türk dünyası üçün Böyük Qapı sayılan Naxçıvanın yaxın gələcəkdə Naxçıvan-Qars, Naxçıvan-Məşhəd və Naxçıvan-Bakı dəmiryol bağlantıları ilə lojistik mərkəzə çevrilməsi şübhəsizdir.*

**Səbuhi HƏSƏNOV**

## 12 noyabr – Konstitusiya Günü ilə bağlı tədbirlər keçirilib



*AMEA Naxçıvan Bölməsində 12 noyabr – Azərbaycan Respublikasının Konstitusiya Gününə həsr olunan tədbir keçirilib.*

"Milli Konstitusiyamız ölkəmizin demokratik inkişafının başlıca təminatıdır" mövzusunda keçirilən tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev əvvəlcə əməkdaşları və onların timsalında bütün Azərbaycan xalqını qələbə münasibətilə təbrik edib.

Ömrünü Azərbaycanın tərəqqisinə, xalqımızın xoşbəxtliyinə həsr etmiş ümummilli lider Heydər Əliyevin dövlətçiliyimizin təşəkkül tapmasında əvəzsiz xidmətlərindən danışan akademik görkəmli dövlət xadiminin müasir Azərbaycanın inkişafı tarixindəki rolu, demokratik, hüquqi dövlət quruculuğu sahəsində həyata keçirdiyi müdrik və uğurlu siyasətindən danışıb.

Bölmə sədri müstəqilliyimizin əsas atributu olan Azərbaycan Respublikası Konstitusiyasının referendum yolu ilə qəbul edilməsinin dövlətçiliyin formalaşdırılması, siyasi və hüquqi sistemdə möhkəm özülün yaradılması işində mühüm addımlardan biri olduğunu deyib. Qeyd edib ki, 1995-ci ildə ümummilli lider Heydər Əliyevin sədrliyi ilə tarixi zərurət nəzərə alınaraq 33 nəfərdən ibarət Konstitusiya Komissiyası yaradıldı və Konstitusiya layihəsi hazırlandı. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət yekun layihə ümumxalq səsverməsinə çıxarıldı. Beləliklə, müstəqil dövlətimizin ilk Milli Konstitusiyası 12 noyabr 1995-ci ildə keçirilən referendum yolu ilə qəbul olundu və 27 noyabr 1995-ci il tarixdə qüvvəyə mindi.

İsmayıl Hacıyev ötən 25 ildə Azərbaycan Respublikasının Konstitusiyasına edilən dəyişiklikləri də diqqətə çatdırıb.

Sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Arxeoloji xidmət şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyevanın "Azərbaycanın ərazi bütövlüyünün bərpası Milli Konstitusiyamızın 25 illiyinə ən gözəl töhfədir" mövzusunda məruzəsi dinlənilib. AMEA-nın müxbir üzvləri – bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Fəxrəddin Səfərli və Təbii Ehtiyatlar İnstitutunun direktoru Tofiq Əliyev mövzu ətrafında çıxış ediblər.

**AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti**

* * *



***Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsində 12 noyabr – Konstitusiya Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdən öncə əlamətdar tarixi günə həsr edilmiş kitab sərgisinə baxış olub. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev çıxışına Qarabağ zəfəri ilə bağlı təbriklə başlayıb. Sonra rektor 1995-ci il 12 noyabr tarixində ümumxalq referendumu əsasında qəbul edilən Konstitusiya haqqında ətraflı məlumat verib. Bildirilib ki, Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsasını təşkil edir. Azərbaycanın demokratik dəyərlərə əsaslanan Əsas Qanununun qəbul olunmasında ulu öndər Heydər Əliyevin tarixi xidmətləri vardır. Qeyd edilib ki, 1995-ci il noyabrın 12-də referendum yolu ilə müstəqil Azərbaycan Konstitusiyası qəbul olunduqdan sonra ölkəmizdə bir çox sahədə olduğu kimi, hüquqi dövlət quruculuğunda da əhəmiyyətli dəyişikliklər baş verib. Vurğulanıb ki, universal dəyərlərə əsaslanan Azərbaycan Respublikasının Konstitusiyası böyük hüquqi, siyasi və ideoloji potensiala malikdir və Azərbaycan xalqının firavanlığına xidmət edir.

Hüquq fənləri kafedrasının müəllimi Əziz Qasımov "Azərbaycan Respublikasının demokratik, hüquqi dövlət və cəmiyyət quruculuğunun Əsas Qanunu" mövzusunda çıxış edib.

Beynəlxalq münasibətlər və hüquq fakültəsinin Tələbə-Gənclər Təşkilatının sədri, Hüquqşünaslıq ixtisası üzrə III kurs tələbəsi Ülvi Vəliyev "Azərbaycan Respublikasının Konstitusiyası və cəmiyyətin ictimai həyatında gənclər" mövzusunda çıxışında gənclərin cəmiyyət həyatında daşıdıqları roldan danışıb.

Sonda Konstitusiya Gününə həsr olunmuş videoçarx izlənilib.

**Telli MUSTAFAYEVA**

# Prezidentin müsahibələri tarixi gerçəklikləri üzə çıxarmaqla siyasi qələbəmizin təminatçısına çevrildi

***Sentyabr ayının 27-dən başlayaraq yaşadığımız dövr həm də ölkə Prezidenti cənab İlham Əliyevin hər bir azərbaycanlıda böyük ruh yüksəkliyi yaradan, qələbə əzmini artıran və həm də tariximizin təhrif olunmuş səhifələrinin üstündən xətt çəkərək olduğu kimi ortaya qoyan xalqa etdiyi müraciətləri, çoxsaylı dövlətlərdən gəlmiş jurnalist və siyasətçilərlə görüşləri, verdiyi müsahibələrlə xarakterizə edildi. Həmin müsahibələrin bir çoxu verilən sualların dünən baş verənlərdən, bu günün reallıqlarından xeyli uzaq olması ilə yadda qaldı. Daha dəqiq desək, tariximizə yenə də saxtalaşdırılmış don geyindirilərək yenidən özümüzə sırımaq cəhdləri diqqətdən yayınmadı. Ancaq həmin sualları verənlər unudurdular ki, yalan ayaq tutar, yeriməz. Yəni artıq arxivlər açılıb, bütün həqiqətlər üzə çıxıb. Ali Baş Komandana qərəzli, tarixi həqiqətləri bilərəkdən və ya bilməzlikdən verilən bəzi sualların arxasında nə dayandığını biz də, onların özləri də yaxşı bilirlər. Məsələ həmin suallara verilən cavabların sanballındadır. Bu isə onunla bağlıdır ki, cənab Prezident öz xalqının bütün resurslarını dəqiq və yüksək səviyyədə bildiyi kimi, tarixini də gözəl bilir. Müsahibələrdə onu da müşahidə etdik ki, ölkə başçısı dünyada baş verən hadisələri, bu hadisələrin təməlində nələrin dayandığını dünənin və bu günün prizmasından çox gözəl təhliletmə qabiliyyəti ilə qarşısındakını mat vəziyyətinə saldı.***

Xüsusilə Prezidentin Fransanın "Figaro" qəzetinə, ABŞ-ın "Fox News", Almaniyanın "ARD", "BBC News" televiziya kanallarına verdiyi müsahibələrindəki qərəzli suallar hər birimizi dərindən hiddətləndirsə də, ölkə rəhbərinin məntiqli, real həqiqətlərə söykənən cavabları bir o qədər sevindirdi. Elə "Figaro" qəzeti müxbirinin ilk sualını xatırlayırsınızmı? Sualın mahiyyəti belə idi ki, biz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçmişik. İstər-istəməz düşünürsən: Ya müxbir özünü gicliyə qoyub, ya da müharibənin kim tərəfindən başlandığını guya bilmir. Şübhə yoxdur ki, bilir...

Elə digər suallarda da heç bir reallığa söykənməyən iddialar, guya regiondakı hadisələrdən xəbərsizlik və özünü gülünc vəziyyətə salan ittihamlar jurnalistin çox aşağı səviyyəli olması barədə yüksək qənaət yaratdı. Məsələn, Türkiyənin azadlıq mücadiləmizə müdaxiləsi, ölkəmizə Suriyadan döyüşçülər gətirilməsi, müxtəlif silahların yardım olunması və saymaqla qurtarmayan sərsəmləmələrə Prezidentin reallığa söykənən qəti cavabları bu gün Azərbaycanın rəhbər postunda kimin oturduğunu göstərdi.

Oktyabr ayının 26-da ABŞ-ın "Fox News" televiziya kanalının təmsilçisi Prezidentə ünvanlandığı suallarda fransalı həmkarını "bir az da qabaqladı". Ancaq onu da etiraf etdi: "Mən Sizin bir çox müsahibələrinizi dinləmişəm. Siz müsahibələrdə regionun üzləşdiyi mürəkkəb məsələləri təfərrüatı ilə və səlis izah edirsiniz".

Cavabdan sonra o da öz fransalı həmkarının sualını təkrarladı və çox utanmazcasına bildirdi ki, Azərbaycan bu müharibəni başlamaq üçün imkan axtarırmış... Jurnalistin aldığı cavaba diqqət edək: ***"Sentyabrın 27-də döyüşlərə başlayan Azərbaycan olmamışdır. Bu vaxta kimi heç bir ölkənin rəsmi nümayəndəsi bu məsələni bizim qarşımızda qaldırmayıb. Sentyabrın 27-də hücuma keçən Ermənistan olmuşdur və məqsəd danışıqlar prosesini tamamilə pozmaq idi. Onlar az və ya çox eyni hərəkəti iyul ayında da etmişdilər. O zaman onlar Ermənistan-Azərbaycan dövlət sərhədində bizim qüvvələrimizə hücum etdilər. Onlar acı məğlubiyyətlə üzləşdilər. Sonra onlar avqustda hərbi mövqelərimizə nüfuz etmək, mülki şəxslərimizə və hərbi qulluqçularımıza hücum etmək üçün diversiya qrupu göndərdilər. Sentyabrın 27-də onlar ağır silahlardan artilleriya bombardmanına başladılar və hücumun ilk saatlarında bizdə mülki şəxslər və hərbi qulluqçular arasında qurbanlar olmuşdur. Bu vaxta kimi mülki şəxslər arasında 63 nəfər öldürülmüşdür və demək olar ki, 300 nəfər mülki şəxs yaralanmışdır. Beləliklə, bu hücuma başlayan Ermənistan idi, biz özümüzü müdafiə etməli və cavab verməli idik. Bizim cavabımız çox adekvat olmuşdur və nəticədə, biz işğal olunmuş ərazilərin mühüm hissəsini azad edə bildik".***

Jurnalistin digər sualları da iftiralarla dolu idi. Düşünürsən ki, informasiya texnologiyalarının yüksək səviyyədə inkişaf etdiyi bir dövrdə dünyada, konkret olaraq, Qarabağda baş verən hadisələri izləməyən çox az insan ola bilər. Ancaq bir jurnalist kimi, üstəgəl, dünyanın supergüc dövlətinin məşhur telekanalının təmsilçisi bu hadisələrin necə başladığını, bu gün necə davam etdiyini, o qərəzli suallara nə cavab alacağını bilmirdimi? Bilmirdisə, aldı cavabını!

Rəzalət o yerə çatdı ki, jurnalist beynəlxalq təşkilatların, bir sıra böyük dövlətlərin atəşkəs çağırışlarının Azərbaycan tərəfindən pozulduğunu iddia etməyə başladı. Onun dedikləri Azərbaycandakı hadisələrdən xəbəri olmayan izləyicilərdə belə bir səhv qənaət yaratdı ki, ordumuz hədsiz dərəcədə mülki əraziləri, evləri, yaşayış məntəqələrini, mağazaları hədəfə alıb, minlərlə adam ölüb və ya yaralanıb. Bəlkə, o, ünvanları səhv salırdı? Gəncə, Bərdə, Tərtərdə baş verənləri o bilmirdimi? Jurnalist yaxşı ki, bir məsələni də etiraf etdi ki, Amerikada Ermənistan yüksək səviyyədə dəstəklənir. Bu da o deməkdir ki, verilən qərəzli sualların təməlində məhz bu amil dayanırdı.

Bir qədər sonra Azərbaycana gələn Almaniyanın "ARD" televiziya kanalının təmsilçisinin verdiyi suallara diqqətlə baxmağa ehtiyac yoxdur. İlk sözündən başlayaraq ittihamlarla dolu olan suallar ilə Fransa və Amerika təmsilçilərinə şükür qazandırdı. Ancaq burada yadıma gözəl atalar sözlərimiz düşür: "İlanın ağına da lənət, qarasına da" və ya "Utanmasan, oynamağa nə var ki?"

Gələk mətləbə. Almaniyalı təmsilçinin də ilk sualı eyniməzmunlu olduğundan düşünürəm ki, onlar bu sualları birlikdə hazırlayıblar, ya da jurnalistlərin "müəllimləri" eyni olub.

Lap ağını çıxaran "ARD" təmsilçisinin BMT-nin kasetli silahlar haqqında konvensiyanın bizim tərəfdən imzalanmaması və buna görə də ondan niyə istifadə etməməyimiz sualına həmişə sülh mövqeyində dayanmış ölkə başçısının cavabı, fikrimizcə, sözdə demokratiyadan, insan hüquqlarından danışan, əməldə ilana ağ verən bütün dövlət başçılarına bir mesaj oldu: ***"Biz münaqişə haqqında danışırıq. Bizim hansısa konvensiyanı imzalamağımız və ya imzalamamağımız faktı bizim o silahdan istifadə etməyimiz və ya etməməyimiz anlamına gəlmir. Bizim kifayət qədər silah-sursatımız var. Bizim müasir silahlarımız var və biz onları döyüş meydanında nümayiş etdiririk. Bizim etdiklərimiz budur, biz əraziləri bombalarla azad etmirik, biz əraziləri, kəndləri, şəhərləri bir-birinin ardınca işğaldan azad edən və Azərbaycan bayrağını ucaldan döyüşçülərimizlə azad edirik. Bu, belə edilir".***

Qarabağın Azərbaycan üçün hansı baxımdan önəmli olduğu sualına cənab Prezidentin cavabı onun ərazilərin işğalı ilə bağlı dünyada baş verənləri dərindən bilən siyasətçi cavabı oldu: ***"Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".***

Bəli, bütün dünya şahiddir ki, Azərbaycan dövləti Dağlıq Qarabağda özünün ədalət və qürur, həmçinin beynəlxalq hüquq məsələsi olan bir problemin həllini, məntiq etibarilə ədaləti bərpa etdi. Ancaq yuxarıda da dediyimiz kimi, bu məsələ ilə bilavasitə məşğul olmağa borclu olanlar öz vəzifə borclarını yerinə yetirmək əvəzinə beynəlxalq hüquq normaları ilə daban-dabana zidd olan hərəkətlərdən utanmırlar. Azərbaycana gələn həmin mətbuat nümayəndələrinin sualları və qənaətləri də belə hərəkətlərin bir ifadəsi deyilmi?

"BBC News"in təmsilçisi ilə cənab Prezidentin müsahibəsi zamanı müxbirin ölkəmizdə guya qeyri-hökumət təşkilatlarının təqiblərə məruz qalmalarını, burada istifadə olunan dronların türk pilotlar tərəfindən idarə edilməsini və digər əsassız suallarını feyk xəbərlər adlandıran cənab Prezidentin sərt və ironiya ilə verdiyi cavabları, yəqin ki, xatırlayırsınız.

Bəli, hörmətli oxucu, yüz faiz əminəm ki, bu xalqın bir nümayəndəsi kimi sən də o müsahibəni dəfələrlə izləmisən və artıq cənab Prezidentin aforizmə çevrilmiş çoxsaylı deyimlərini də əzbər bilirsən. Bəhs etdiyimiz müsahibədə də hər sətri, hər cümləsi şantajla dolu olan, təhrif edilmiş tariximizdən verilən suallar həm də jurnalistin siyasi mədəniyyətsizliyini ortaya qoydu. Cənab Prezidentin cavabları isə Qarabağ müharibəsində igid əsgərlərimizin işlətdiyi silahların gücündən də artıq idi, həqiqət idi, reallıq idi. Bütün dünyanın həmin müsahibəni izlədiyi şəksizdir. Bununla məşhur telekanalın Azərbaycana qarşı sərgilədiyi mövqe dünya ictimaiyyətinə bir daha bəlli oldu və müxbir qərəzli sualları ilə özünü gülünc vəziyyətə saldı. Burada Prezidentin bir tövsiyəsini xatırlamamaq olmaz: ***"...Buraya gəlməmişdən və bizə mühazirə oxumaqdan əvvəl güzgüyə baxın".***

Yəqin ki, siz də razılaşarsınız ki, Prezidentin belə jurnalistlərə və təmsil etdikləri media orqanlarına, onların rəhbərlərinə, mənsub olduqları dövlətlərə ən gözəl cavabı noyabr ayının 10-da xalqa müraciəti oldu. Və biz cəbhədən qalib çıxdığımız kimi informasiya müharibəsində də böyük qələbə qazandıq.

Müsahibələr bir sıra suallar yaradır. Adıçəkilən ölkələr dünyanın güc dövlətləridir, yəni onların kibrit çöpünə də ehtiyacları yoxdur. Onda Ermənistana nə üçün belə ürəkləri yanır? 30 ildir ki, bu "məzlum" xalqın Azərbaycana qarşı etdiklərinə niyə göz yumurlar, daha doğrusu, onu haqsız yerə müdafiə edirlər? Dəvənin qurbağaya gözümü düşüb?

***P.S.*** *Böyük sərkərdə Əmir Teymurun sözlərini xatırlamaq yerinə düşər: "Gələcək nəsillər erməniləri son nəfərinədək qırmadığım üçün yə məni alqışlayacaq, ya da lənətləyəcəklər..."*

✍ **Muxtar MƏMMƏDOV**

***Dünən Naxçıvan Dövlət Rəsm Qalereyasında Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə tanınmış dekorativ sənət rəssamı Aygün Nağıyevanın yaradıcılıq sərgisi təşkil olunub.***

# Fərdi yaradıcılıq sərgisi təşkil edilib



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova açaraq əvvəlcə tədbir iştirakçılarını, Azərbaycan xalqını Böyük Qələbə Günü və 12 noyabr – Konstitusiya Günü münasibətilə təbrik edib. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan uzaqgörən siyasət nəticəsində 30 ilə yaxın vaxt keçsə də, xalqımız, nəhayət, öz haqq savaşında qalib gəldi. Bu qələbə bizim tariximizlə bərabər, mədəniyyətimizin və milli qürurumuzun da qələbəsi oldu.

Qeyd edilib ki, Ali Məclis Sədrinin diqqət və qayğısı ilə muxtar respublikamızda bir çox mədəniyyət müəssisələri, o cümlədən dövlət teatrları, filarmoniyalar, muzeylər, kitabxanalar, rəsm qalereyaları, konsert salonları, kino müəssisələri, mədəniyyət sarayları, həmçinin Bəstəkarlar Təşkilatı, Rəssamlar Birliyi, Yazıçılar Birliyi fəaliyyət göstərir. Günün tələbləri səviyyəsində işlərini qurmağa çalışan mədəniyyət ocaqlarında hər il yeni tamaşa və konsert repertuarları hazırlanır, xalqımızın tarixi, adət-ənənələri öyrənilir və təbliğ edilir, incəsənət nümunələri yaradılıb inkişaf etdirilir. Yaradılan şərait istedadlı insanların yaradıcılıq imkanlarının daha da genişlənməsinə səbəb olur. Naxçıvan mədəniyyəti həm də dünyanın digər ölkələrində beynəlxalq sərgi, festival və müsabiqələrdə uğurla təbliğ edilir.

Nazir çıxışında istedadlı gənclərin üzə çıxarılması və təhsil almaları istiqamətində də görülən işlərdən danışıb. Vurğulanıb ki, böyüməkdə olan uşaqların təhsillə bərabər maraq dairələrinin də formalaşması üçün uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin, o cümlədən uşaq-gənclər yaradıcılıq mərkəzlərində müxtəlif sahələr üzrə dərnəklərin fəaliyyət göstərməsi, daha sonra həmin gənclərin istedadları üzrə ali və orta ixtisas təhsili müəssisələrində oxuya bilmələri və təhsildən sonra işlə təmin olunması üçün vahid sistem yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən ali və orta ixtisas təhsili müəssisələrində 21 ixtisas üzrə təhsil alan tələbələrin Mədəniyyət Nazirliyinin hamiliyinə verilməsi də görülən işlərin məntiqi davamıdır. Diqqətə çatdırılıb ki, son illərdə keçirilən eksponat təqdimatlarında, o cümlədən rəsm və dekorativ-tətbiqi sənət əsərlərinin təqdimat mərasimlərində Naxçıvandan və digər bölgələrdən olan, o cümlədən əcnəbi vətəndaşlar da iştirak edirlər. Naxçıvan Muxtar Respublikasında keçirilən 4 beynəlxalq rəsm festivalı çərçivəsində Naxçıvan Dövlət Rəsm Qalereyasına onlarla rəssamın çəkdiyi rəsm əsərləri bağışlanıb. Ötən illər ərzində yerli rəssamlar da bu sahədə nümunə göstəriblər. Qeyd olunub ki, bütün bunlar uzun illər ərzində arxa cəbhədə qazandığımız qələbənin yalnız cüzi bir hissəsidir. Və təsadüfi deyildir ki, bu gün buraya toplaşdığımız sərginin də adı "Qələbə sevinci"dir.

Nazir çıxışının sonunda ümummilli lider Heydər Əliyevin portretini muxtar respublikamıza hədiyyə edən Aygün Nağıyevaya bu təşəbbüsünə görə təşəkkür edib və rəssamı sərgi münasibətilə təbrik edib.

Aygün Nağıyeva sərgi üçün yaradılan şəraitə görə təşkilatçılara minnətdarlığını bildirib. Sonra sərgi ilə tanışlıq olub.

Sonda tədbir iştirakçıları tərəfindən qalereyanın ekspozisiyasına baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində payız-qış mövsümünün uğurla başa vurulması məqsədilə işlərə həsr olunmuş tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar nazirinin müavini Həbib Novruzov açıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikasında 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə nazirliyə yaşayış məntəqələrində sakinlərə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsinə diqqətin artırılması, mal-material ehtiyatının yaradılması barədə tapşırıqlar verilib və qarşıda duran vəzifələr müəyyənləşdirilib.

Sonra Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şöbə rəisi, polkovnik Emin Qasımov tədbir iştirakçılarına nazirlikdə və tabeli qurumlarında mülki müdafiə hazırlığının təşkilinə və tədbirlərin keçirilməsinə diqqətin artırılması barədə məlumat verib.

Rabitə və Yeni Texnologiyalar Nazirliyinin aparat rəhbəri Əziz Hümbətov bildirib ki, muxtar respublika əhalisinə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsi məqsədilə mal-material ehtiyatının yaradılması başa çatdırılıb, rabitə mütəxəssisləri mövsümə uyğun geyimlə təmin olunublar. Bunlarla yanaşı, avtomat telefon stansiyalarında istismar olunan qurğulara, o cümlədən generatorlara və akkumulyatorlara texniki baxış keçirilir, aşkar olunan çatışmazlıqlar qısa müddət ərzində aradan qaldırılır.

Sonra Fövqəladə Hallar Nazirliyinin əməkdaşları Azadə Cəfərova və Afaq Alməmmədova çıxış ediblər.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Bir aydan çoxdur, davam edən II Qarabağ müharibəsində Azərbaycan özünün hərbi və siyasi gücünü sübut edərək tarixi qələbə qazandı. Noyabrın 10-u tariximizə qızıl hərflərlə yazıldı. Bu gün hər bir azərbaycanlı fəxr, qürur hissi keçirir ki, 30 ildir, ürəyimizdə, arzularımızda, xəyallarımızda yaşatdığımız Qarabağımıza qovuşduq. Dövlət başçımız cənab İlham Əliyevin* ***“Qarabağ Azərbaycandır və nida”*** *ifadəsi ilə çıxdığımız şanlı qələbə yolunda Ali Baş Komandanımızın qətiyyəti, xalqımızın birliyi, əzmi, Ordumuzun qəhrəmanlığı, şücaətilə yeni tarix yazıldı. Bu, Qələbə tarixidir, şan və şərəf tarixidir. Bu bizim uzun illərdir, həsrətində olduğumuz əzəli və əbədi torpağımız olan Qarabağın yenidən doğulması, fəxr, qürur tarixidir. Bu əvəzedilməz gün münasibətilə naxçıvanlı ziyalıların fikirlərini də öyrəndik, onların sevinclərinə şərik olduq.*

# Naxçıvanlı ziyalıların tarixi Qələbə təəssüratları

***İsmayıl Hacıyev – AMEA Naxçıvan Bölməsinin sədri, akademik:*** – 30 ilə yaxın bir müddətdə dünya dövlətlərinin, xüsusilə də ATƏT-in Minsk qrupunun həll edə bilmədiyi Dağlıq Qarabağ problemi qısa müddət ərzində Azərbaycan dövləti, Azərbaycan Ordusu, Ali Baş Komandanımız cənab İlham Əliyev tərəfindən öz həllini tapdı. Artıq ermənilər başa düşdü ki, Azərbaycan qarşıya qoyduğu vəzifəni sona qədər yerinə yetirəcək. Sentyabrın 27-dən başlanan uğurlu əməliyyatlar ermənilərin mərhələ-mərhələ şəhər, kənd və qəsəbələrimizdən uzaqlaşması ilə nəticələndi. Qarabağın tacı Şuşanın əldə edilməsi isə artıq birmənalı şəkildə həm beynəlxalq təşkilatlara, həm də ermənilərə ciddi mesaj oldu. Şuşanın alınması ilə Qarabağın tarixi taleyi də tamamilə həll olundu.



Tarixdən məlumdur ki, Azərbaycan ərazilərində yaradılan Ermənistan dövləti daim Naxçıvanı, Zəngəzuru və Qarabağı öz ərazisinə birləşdirmək üçün addımlar atırdı. XX əsrin əvvəllərində sovet rəhbərlərinin ikili siyasəti nəticəsində Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün səylər göstərildi, lakin buna nail ola bilmədilər. Həmin ərazidə azsaylı ermənilərə mədəni muxtariyyət statusu verildi. Çox qəribədir. O dövrün tarixi mənzərəsini təhlil edərkən qarşıya belə bir sual çıxır. Həmin illərdə Ermənistan deyilən ərazidə azərbaycanlıların sayı yarım milyona çatırdı, eyni ilə Gürcüstanda da 300 mindən çox azərbaycanlı yaşayırdı. Nə yaxşı bu ərazidə yaşayan azərbaycanlılara deyil, Qarabağ ərazisində yaşayan azsaylı ermənilərə muxtariyyət statusu verildi? Bu, açıq şəkildə onu göstərirdi ki, SSR rəhbərlərində ikili siyasət mövcuddur, onlar ermənilərə hər cür dəstək verirlər. O vaxt ulu öndər Heydər Əliyevin Siyasi Büroda fəaliyyəti Qarabağ probleminin ermənilərin xeyrinə həll olunmasına ciddi maneə olurdu. Ona görə də 1987-ci ilin sonuna yaxın ümummilli lideri həmin vəzifələrdən kənarlaşdırdılar. İki həftə keçməmiş Dağlıq Qarabağ problemi ortaya atıldı. Azərbaycanlılar ermənilərə qarşı ciddi müqavimət göstərsələr belə, ərazini qoruyub saxlaya bilmədilər. Beləliklə, Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonu, 17 min kvadratkilometr ərazini işğal etdilər. Qeyd etdiyim kimi, Azərbaycan xalqı heç vaxt bu işğal faktı ilə barışmadı. Ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıtması ilə1993-2003-cü illərdə problemin həlli istiqamətində bir sıra tədbirlər işlənib həyata keçirildi. Lakin ATƏT-in Minsk qrupunun bu məsələni masa üstündə saxlaması ermənilərin xeyrinə idi. Ölkə başçısı cənab İlham Əliyev hakimiyyətə gələn gündən fəaliyyətini Dağlıq Qarabağ probleminin həllinə yönəltdi. Bu illər ərzində Azərbaycanın güclü müdafiə sisteminin qurulması, Müdafiə Sənayesi Nazirliyinin yaradılması, Azərbaycan Ordusunun müasir səviyyədə formalaşdırılması, xalqımızın birliyi, ordumuzun qəhrəmancasına, vətənpərvər fəaliyyəti bu məsələnin Azərbaycanın xeyrinə həll edilməsinə gətirib çıxardı. 2016-cı ilin Aprel döyüşlərindən əsası qoyulan bu zəfər yürüşü sentyabrdan başlanan Vətən müharibəsində şanlı Ordumuzun qəhrəmanlığı, dövlət başçısının güclü siyasi, diplomatik bacarığı, əzmi, cəsarəti nəticəsində öz həllini tapdı. Müharibənin ilk günlərindən qardaş Türkiyənin birmənalı mövqeyi, kənar qüvvələrin müharibəyə müdaxiləsinə imkan vermədi. Qəhrəman Azərbaycan Ordusu, ona uğurla rəhbərlik edən Ali Baş Komandanımız cənab İlham Əliyevin məqsədyönlü siyasəti, qətiyyətli mövqeyi sayəsində müharibənin taleyi həll olundu. Qısa müddət ərzində Azərbaycanın işğal olunmuş ərazilərindən erməni qoşunlarının çıxarılması üçün konkret vaxt müəyyən edildi. Maraqlıdır ki, Dağlıq Qarabağ məsələsinin həlli ilə gələcəkdə Naxçıvan Muxtar Respublikasında da taleyüklü bir məsələnin həllinə nail olunacaq. Vaxtilə Zəngəzurun işğal edilməsi ilə əlaqədar Naxçıvana gələn yollara ermənilər mane olurdu. Gələcəkdə bu ərazilərdə yaradılan yeni müasir şərait Naxçıvanın da, bütövlükdə, Azərbaycanla quru əlaqəsinin bərpasına şərait yaradacaq, Naxçıvan blokada şəraitindən azad olacaq. Mən qazanılan tarixi Qələbə münasibətilə Azərbaycan xalqını təbrik edirəm. Müstəqil Azərbaycana Qələbə yaraşır.

***Elbrus İsayev – Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent:*** – Azərbaycan tarixin ən şərəfli bir gününü yaşayır, uzun illərdən bəri, 30 ilə yaxın bir dövrdə Azərbaycan xalqının hər bir nümayəndəsinin qəlbindəki arzusu reallığa çevrilib. Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü siyasi xəttin Prezident cənab İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan artıq diplomatik, hərbi, iqtisadi, bütövlükdə, dövlət quruculuğu sahəsində özünü bütün dünyaya təsdiq edib. Biz özümüzü xoşbəxt hesab edirik ki, Azərbaycan tarixində son yüzilliklərin ən parlaq qələbə tarixinin canlı şahidi olduq. Bu, hər bir Azərbaycan vətəndaşı kimi, biz ziyalıların da böyük iftixar və sevincinə səbəb oldu. Nə qədər tariximizi oxusaq da, gözəl bilsək də, ona hər zaman sadiq qalsaq da, Qarabağsız bu tarix, sanki yarımçıq qalmışdı. Məhz belə bir mənəvi boşluğu Ali Baş Komandanın böyük cəsarəti, qətiyyəti,



müzəffər Ordumuzun böyük ruh yüksəkliyi, döyüş hazırlığı tamamladı. Azərbaycan, sadəcə, torpaqlarımızın işğaldan azad olunması ilə kifayətlənmədi, eyni zamanda Azərbaycan xalqı öz varlığını, milli məsələlərdəki həmrəyliyini, xalqımızın parlaq gələcəyini bütün dünyaya nümayiş etdirdi. Cənab Prezidentin ölkəyə uğurlu rəhbərliyi, uzun illərdən bəri apardığı ordu quruculuğu tarixi Qələbənin qazanılmasında əsas amil oldu. Burada müzəffər Ordumuzun mərdliyi, igidliyi böyük rol oynadı. Buna görə də qəhrəman əsgərlərimizin, böyük şücaətlər, qəhrəmanlıqlar göstərib, ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu qarşısında baş əyirik. Borcumuzdur ki, gələcək nəsillərə ölməz, qəhrəman şəhidlərimizin keçdikləri həyat yolunu, Azərbaycan xalqı qarşısındakı xidmətlərini çatdıraq, onları böyük vətənpərvərlik nümunəsi kimi təbliğ edək, əsərlərimizdə, kitablarımızda, dərsliklərimizdə, tədbirlərimizdə onları yaşadaq. Beynəlxalq hüquqda qazandığımız nailiyyətlər, Azərbaycan iqtisadiyyatının əldə etdiyi uğurlar və dolayısı ilə bu iqtisadi uğurların hərbi sahədə təcəssümü, müdafiə sahəsində aparılan təkmilləşmələr, yeni infrastruktur layihələri, yeni sənaye sahələrinin inkişaf etdirilməsi Azərbaycanın bugünkü uğurlarının əsasını təşkil edir. Azərbaycanın qazandığı qələbələr bundan sonra da Azərbaycan dövlətinin, cəmiyyətinin sürətli inkişaf yoluna qədəm qoyacağından xəbər verir. Çox böyük qürur hissi keçiririk ki, əzəli, qədim Azərbaycan torpaqlarına, Qarabağa qayıdırıq. Bir daha bu tarixi Qələbə münasibətilə müzəffər Azərbaycan Ordusuna, onun Ali Baş Komandanına minnətdarlığımızı bildiririk.

***Ülviyyə Həmzəyeva – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Respublikasının Əməkdar rəssamı:*** – Bu günlərdə şanlı dövlətçilik tariximizə qızıl hərflərlə yazılan möhtəşəm tarixi hadisənin şahidi olduq. Əzəli Azərbaycan torpaqları olan Qarabağımıza qovuşduq. Azərbaycan 30 ilə yaxındır ki, Dağlıq Qarabağ münaqişəsini beynəlxalq birlik tərəfindən tanınan sərhədlər çərçivəsində suverenliyə və ərazi bütövlüyünə hörmət əsasında dinc yolla nizamlamağa çalışırdı. Bu 30 ilə yaxın müddətdə BMT, ATƏT və onun Minsk qrupu, Avropa ictimaiyyəti, həmçinin bir sıra sülhməramlı təşkilatlar Ermənistan rəhbərliyinə bütün danışıqlar prosesini pozmaq cəhdlərinə görə heç bir təsir göstərməyiblər. Nəticədə, ermənilər daha azğınlaşmış və son zamanlar, ümumiyyətlə, danışıqlardan imtina etmək kimi mənfur niyyətlərini ortaya qoymuşdular. Cənab Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdi ki, Ermənistan tərəfindən Azərbaycana qarşı davam edən hərbi təcavüz, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində mövcudluğu regionda sülhə və təhlükəsizliyə əsas təhdid mənbəyidir. Ermənistan Dağlıq Qarabağda heç kəs tərəfindən tanınmayan separatçı rejim yaratmışdı. Nəticədə, yüz minlərlə azərbaycanlı doğma torpaqlarımızdan qovulmuş, dinc sakinlər vəhşicəsinə qətlə yetirilmişdi, Azərbaycanın milli sərvətləri və tarixi abidələri vəhşicəsinə məhv edilmişdi. Azərbaycanda son 30 ildə çox böyük ordu quruculuğu siyasəti həyata keçirildi. Ermənistan rəhbərliyi dərk etdi



ki, Azərbaycan Ordusunun gücü qarşısında acizdir, onun qarşısında duruş gətirə bilməz. Azərbaycanın müharibə meydanında yeni texnologiyalar, yeni üsullar və metodlar tətbiq edərək öz gücünü bütün dünyaya nümayiş etməsi də bunun ifadəsidir.

Onu da deyim ki, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik və gücləndik. Bu gün



ölkə Prezidentinin apardığı siyasət dəmir yumruq kimi düşmənlərimizi əzdi və düşməni torpaqlarımızdan qovdu – 10 noyabr tariximizə Qələbə günü kimi yazıldı. Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları işğalçı Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Ali Baş Komandan başda olmaqla, Ordumuz Ermənistanı sülhə məcbur etdi. Noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladığı birgə bəyanat Azərbaycanın döyüş meydanında qazandığı parlaq qələbənin hüquqi müstəvidə rəsmi təsdiqi kimi qiymətləndirilməlidir. İmzalanmış üçtərəfli bəyanat Azərbaycanın qələbəsini, Ermənistanın məğlubiyyətini beynəlxalq səviyyədə rəsmiləşdirdi. Yaşasın güclü Azərbaycan!

***Cəbi Quliyev – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru:*** – Bu gün Azərbaycan xalqı milli qürur və qələbə tarixini yaşayır. Çünki müzəffər Ali Baş Komandanımız, şanlı Ordumuz, qürurlu, mərd xalqımız işğalçı Ermənistanı rəzil duruma saldı, kapitulyasiyaya məcbur etdi və uzun illər işğalda olan torpaqlarımız erməni silahlı qüvvələrindən azad edildi. Ermənilərin arzusu olan Dağlıq Qarabağın statusu məsələsinə də son qoyuldu və artıq yurd həsrəti çəkən bütün məcburi köçkünlər öz doğma yurdlarına qayıdacaq. Naxçıvanla Azərbaycanın arasında bütün kommunikasiya xətləri bərpa ediləcək. Bu münaqişədə haqq da, ədalət də Azərbaycanın yanında idi. Ona görə də bu savaşda son və həlledici qələbə tez bir zamanda bizim oldu. Əlbəttə, birliyin, həmrəyliyin, vətəndaş məmnunluğunun bu cür yüksək səviyyədə olduğu bir ölkənin buna nail olması labüd idi. Biz artıq Qarabağa qayıdırıq. Bu zəfəri bizə yaşadan Ali Baş Komandanın qətiyyətinə, ordumuzun rəşadətinə eşq olsun!



*İnanıram ki, tez bir zamanda Azərbaycan Ordusunun düşmən tapdağından azad etdiyi ərazilərin uyğun qaydada bərpası da həyata keçiriləcək. Qarabağımız yenidən canlanacaq, ona yeni həyat bəxş ediləcək. Burada onu da xatırladaq ki, işğaldan azad edilən ərazilərin bərpası üzrə Azərbaycanın kifayət qədər təcrübəsi var. Cocuq Mərcanlı bunun ən real təsdiqidir. Dövlətin diqqət və qayğısı nəticəsində Cocuq Mərcanlı kəndi qısa müddətdə müasir və abad bir yaşayış məntəqəsinə çevrilib. Artıq Tərtər rayonunun azad olunan Suqovuşan və Talış kəndlərinə gedən 29 kilometrlik avtomobil yollarının bərpasına başlanılıb. Bir sözlə, Azərbaycan işğaldan azad olunmuş ərazilərimizi tamam fərqli bir həyat gətirməyə hazırlaşır.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Sosial qayğıya ehtiyacı olan şagirdlərə qış geyimləri verilib



Dünən Naxçıvan Muxtar Respublikasının Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə valideynlərini itirmiş, aztəminatlı və sağlamlıq imkanları məhdud uşaqlara qış geyimləri verilib.

Tədbirdə çıxış edən Təhsil naziri Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası istiqamətində görülən işlərdən danışıb.

Bildirib ki, bu qəbildən olan uşaqlara qayğının ifadəsidir ki, muxtar respublikada Gözdən əlillər üçün xüsusi ibtidai məktəb, Distant tədris mərkəzi, əmək terapiyası, audio və elektron kitabxana xidmətləri yaradılıb, nitq problemləri olan uşaqlar üçün Defektoloji bölmə fəaliyyətə başlayıb, görmə qabiliyyəti məhdud uşaqlar üçün brayl kursları təşkil edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək bildirib ki, bu gün muxtar respublikada bütün sahələrdə bərqərar olunan tərəqqi və inkişafı sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasında da aydın görmək olar. Nazirlik və aidiyyəti dövlət qurumları tərəfindən bu kateqoriyadan olan uşaqlara tolerant təhsil mühitinin formalaşdırılması məqsədilə təhsil müəssisələrində monitorinqlər aparılır, bu istiqamətdə maarifləndirici görüşlər keçirilir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikasında dövlət uşaq siyasəti uğurla həyata keçirilir. Diyarımızda yaşayan bütün uşaqlar kimi, valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud uşaqlar, şəhid, aztəminatlı və çoxuşaqlı ailələrin uşaqlarının hüquqlarının qorunması, sosial müdafiələrinin gücləndirilməsi ilə bağlı proqramlar qəbul edilir və icra olunur.

Tədbirdə sosial qayğıya ehtiyacı olan şagirdlərin valideynləri adından çıxış edən Tamara Zeynalova bu kateqoriyadan olan uşaqlara göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonda aztəminatlı ailələrdən olan, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud şagirdlərə qış geyimləri verilib.

Qeyd edək ki, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum 81, sağlamlıq imkanları məhdud 286, aztəminatlı ailələrin övladlarından isə 85 olmaqla, ümumilikdə, 452 məktəbli təhsil sovqatı ilə sevindirilib.

Həmin gün muxtar respublikanın rayonlarında da aidiyyəti təşkilatların və rayon İcra hakimiyyətlərinin nümayəndələri tərəfindən sosial qayğıya ehtiyacı olan məktəblilərə qış geyimləri verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Azərbaycan musiqisinin məbədi, mədəniyyət beşiyimiz




***"Bizim xalqımızın böyük musiqi mədəniyyəti tarixi var. Azərbaycan xalqının qədim dövrlərdən indiyə qədər yaşayan xalq musiqisi, xalq mahnıları, Azərbaycan muğamları milli sərvətimizdir".*** *Ümummilli liderimiz Heydər Əliyevin bu cür yüksək qiymət verdiyi muğamlarımızın xoş sədası bu sənətin beşiyi olan Şuşadan ucalaraq bütöv Azərbaycana yayılıb, xalqımızın qanına, canına, yaddaşına hopub.*

Muğamlar əsrlərboyu böyük inkişaf yolu keçərək xalqımızın mənəvi dəyərlərini və nailiyyətlərini özündə əks etdirir. Tarixi çox qədim olan muğamlarımız Azərbaycan musiqi mədəniyyətinin zəngin bir hissəsi, əsrlərdən bəri şifahi şəkildə inkişaf edərək dövrümüzə qədər gəlib çatmış nadir sənət nümunəsidir. Bir çox muğam ifaçılarının parlaq fərdi istedadı və bir sıra digər cəhətlər muğamlarımızın ayrı-ayrı bölgələrimizdə müxtəlif inkişaf yolu keçdiyini təsdiq edir. Bütün bunlar muğamların fərqli ifa variantlarının meydana çıxmasına və onun daha da zənginləşməsinə şərait yaradıb.

Bu qədim sənəti daha da zənginləşdirən Azərbaycan muğam məktəbləri olub. Muğam ifaçılığının yayılması və ifaçıların peşəkarlığının artırılması XIX əsrin əvvəllərindən başlayaraq bir çox şəhərlərdə, xüsusilə Şuşada inkişaf edib. Keçmiş zamanlardan Qarabağda müxtəlif musiqi-muğam məclisləri fəaliyyət göstərib. Bu məclislər muğamı inkişaf etdirib, onun yeni-yeni qollarının, şöbələrinin yaranmasına rəvac verib, muğamın dinlənmə coğrafiyasını daha da genişləndirib. Muğamın bu cür inkişafı XIX və XX əsrlərin əvvəllərində Azərbaycan musiqiçilərinin peşəkar inkişafına təkan verib.

Tədqiqatçıların belə bir fikri var: ifaçıların məhz Qarabağ torpağında dünyaya göz açması, sanki onların taleyini əvvəlcədən müəyyən edib. Əgər sən ideal səsə sahibsənsə, deməli, sən qarabağlısan. Çünki ən məşhur muğam ifaçılarına diqqət yetirdikdə, həmin ifaçıların məhz bu torpaqların yetirmələri olduğunu aşkar şəkildə görürük. Sanki muğam bu yurdun insanları ilə birgə doğulur, eyni taleyi yaşayır. Xanın səsi ilə yüksəlir, Üzeyirin dühası ilə dünyanı fəth edir.

Qarabağ muğam məktəbinin nümayəndələri Azərbaycan xalqının musiqi mədəniyyətini inkişaf etdirməklə, öz həmvətənlərinin ağıllarına, hiss və duyğular aləminə nəcib təsir göstəriblər. Bu yerlərin təbiətindən süzülüb gələn, ruhu oxşayan həmin gözəllikdir ki, musiqi mədəniyyətində öz əksini tapıb. Qarabağ muğam məktəbinin rəmzinə çevrilən məşhur "Qarabağ şikəstəsi" buna bariz nümunədir.

Bəstəkarlarımız üçün ilham mənbəyi olan muğam, həm də milli musiqi mədəniyyətimizin uğurlarının əsasında durur. Dahi Üzeyir Hacıbəyli "Leyli və Məcnun" operasını muğam üzərində yazıb, Fikrət Əmirov "Şur" və "Kürd-Ovşarı" simfonik muğamları ilə dünya musiqisində simfonik muğam janrının əsasını qoyub. Niyazi, Qara Qarayev, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Aqşin Əlizadə, Arif Məlikov, Firəngiz Əlizadə və digər görkəmli bəstəkarlarımızın yaradıcılığında muğamdan gələn bədii prinsiplər ən müasir kompozisiya texnikası ilə qovuşur.

Tarixən Şuşada Xarrat Qulu Məhəmməd oğlunun, Mir Möhsün Nəvvabın, Şamaxıda Mahmud Ağanın, Bakıda Məşədi Məlik Mənsurovun məclisləri, bu məkanlardan çıxan böyük sənətkarlar muğamın milli musiqimizin ana dili olduğunu bir daha təsdiqləyir. Bu, özlüyündə görkəmli rus ədibi Sergey Yeseninin məşhur "Şair deyilsə, Şirazdan, müğənni deyilsə, Şuşadan deyil" ifadəsini xatırladır. Yazıçı Əbdürrəhim bəy Haqverdiyev isə deyirdi ki, XIX əsrin ikinci yarısında Bakıda, Şamaxıda, Aşqabadda, Tehranda və ya İstanbulda musiqiçilərlə rastlaşsanız, hökmən onların arasında şuşalı olduğunu görəcəksiniz. Şuşa dünyaya o qədər ustad xanəndələr, görkəmli bəstəkarlar və musiqişünaslar bəxş edib ki, onlar haqqında ifaçılıq ustalığı üzrə böyük bir ensiklopediya da yaratmaq olar. Bu dilbər guşəmiz tarixən muğam məclisləri ilə o qədər şöhrət tapıb ki, nəticədə, musiqi mədəniyyəti baxımından Qafqazda nadir məkana çevrilib. Əbəs yerə deyil ki, Şuşanı haqlı olaraq Şərqin musiqi konservatoriyası da adlandırırlar.

Günümüzdə də muğam Azərbaycan musiqisinin zirvəsi olaraq qorunub saxlanılır, gələcək nəsillərə ötürülür. Bütün bunların nəticəsidir ki, muğam bu gün bütün dünyada Azərbaycan xalq musiqisi kimi tanınır, şöhrət tapır. Təsadüfi deyil ki, milli dəyərlərimizin bir parçası olan muğamlarımız YUNESKO-nun maddi-mədəni irs siyahısına daxil edilib. Deməli, muğam bəşəriyyətin qorumalı olduğu dəyərli bir irsdir.



Bir sözlə, muğamlarımız nəsillərdən-nəsillərə keçərək Azərbaycan xalqının ruhuna hakim kəsilib, damarında axan qanına çevrilib, bu günümüzə gəlib çatıb. Sevindirici haldır ki, bu irs muxtar respublikamızda da lazımınca qorunur, təbliğ edilir. Naxçıvanda fəaliyyət göstərən uşaq musiqi məktəblərində, Musiqi Kolleci və Naxçıvan Dövlət Universitetinin konservatoriyasında muğam ixtisas kimi tədris olunur. Uşaq musiqi məktəblərini bu ixtisas üzrə bitirən şagirdlər Naxçıvan Musiqi Kollecinin muğam sinfində təhsillərini davam etdirirlər.

Bütün bunlar isə bir daha təsdiq edir ki, heç bir qüvvə xalqımızın milli dəyərlərini, mənəvi sərvətini unutdura, ondan uzaqlaşdıra bilməz. Azərbaycana qarşı əsassız və ədalətsiz torpaq iddiaları irəli sürən erməni vandalları Qarabağın mədəniyyət mərkəzi hesab olunan Şuşanı illərboyu işğalda saxlasalar da, bu diyarın bizə bəxş etdiyi mədəni sərvət bu gün də qorunub saxlanılır, daha da inkişaf və təbliğ edilir. Qarabağ bülbülləri hələ də oxumağa davam edir. "Qarabağ xanəndələri" layihəsində xalqımızın musiqi mədəniyyətinin inkişafında xüsusi rolu olan Qarabağ muğam məktəbinin 24 nümayəndəsinin səs yazıları lentə alınıb.

*Bu gün hər birimiz Qarabağın azad edilməsi sevincini yaşayırıq. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuz 30 ildən sonra Böyük Qələbə sevincini yaşatdı bizə. Bu gün bütöv Qarabağda üçrəngli bayrağımız qürurla dalğalanır. Artıq doğma diyarımızın muğamının xoş sədası çınlayır qulağımızda, onun avazı ilə boy atıb ecazkar mənzərələr yaradan xarıbülbülün valehedici ətri duyulur havadan. İndi Xanın səsi öz doğma yurdunda yenidən havalanır, Natəvanın qəzəlinin ruhu Qarabağın səmasında xoşbəxtliklə pərvazlanır. Hər qarışı əziz olan, doğma olan Qarabağa biz yenidən qayıdırıq, özü də milli muğamlarımızın sədaları altında!*

**Gülcamal TAHİROVA**

# Özünüməşğulluq proqramı uğurla davam etdirilir



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial müdafiəsinin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müvafiq tədbirlərin icrası davam etdirilir.***

Proqramın icrası ilə əlaqədar oktyabr ayında muxtar respublika üzrə, ümumilikdə, 29 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və 12 nəfərin hər birinə 2 baş iribuynuzlu, 8 nəfərin hər birinə 20 baş xırdabuynuzlu heyvan, 1 nəfərə ev quşları və quş yemi, 4 nəfərə miniyerşumlayan aqreqat, 2 nəfərə dərzi avadanlığı və ləvazimatları, 1 nəfərə döşəmə hamarlayan dəzgah, 1 nəfərə isə unlu və qənnadı məmulatların hazırlanması üçün avadanlıq və ləvazimatlar verilib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası nəticəsində aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş, habelə sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluğunun təmin edilməsi istiqamətində sosial layihələr həyata keçirilib. Bildirib ki, özünüməşğulluğa cəlb olunmuş ailələrin təsərrüfatlarında qısa müddət ərzində artımlar olub, bu da həmin ailələrin sosial rifah halının yaxşılaşmasına müsbət təsir edib.

Daha sonra çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin direktoru Vüsal Süleymanlı və Şahbuz Rayon Məşğulluq Mərkəzinin direktoru Fəxrəddin Bağırov proqramın icrası ilə bağlı görülmüş işlərdən danışıblar.

Tədbir proqrama cəlb edilmiş sakinlərə verilən aktivlərlə bağlı sənədlərin təqdim edilməsi ilə başa çatdırılıb.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

# Əmək pensiyalarının maliyyələşdirilməsi başa çatdırılmışdır

***Ölkə başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən ciddi iqtisadi və struktur islahatları əhalinin sosial müdafiəsi sahəsində də uğurlu nəticələrin əldə olunmasını təmin etmişdir. İqtisadi inkişaf modelinin ən mühüm uğuru iqtisadi sahədə qazanılan gəlirlərin, ilk növbədə, əhalinin rifah halının yüksəldilməsinə, vətəndaş firavanlığının təminatına və insan kapitalının inkişafına yönəldilməsi, dinamik iqtisadi tərəqqinin daim güclənən sosial siyasətlə tamamlanmasıdır.***



Muxtar respublikamızda da həyata keçirilmiş sosial-iqtisadi islahatlar nəticəsində əhalinin, habelə əmək pensiyaçılarının rahatlığının təmin olunması, onların maddi təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bilavasitə diqqət və qayğısı nəticəsində bütün növ əmək pensiyalarının və müavinətlərin hər ay vaxtından əvvəl maliyyələşdirilməsi təmin olunur. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bu sahədə üzərinə düşən tapşırıqların yerinə yetirilməsi üçün mütəmadi olaraq tədbirlər görür. Bunun nəticəsidir ki, muxtar respublika üzrə noyabr ayında əmək pensiyalarının ödənişi vaxtında maliyyələşdirilmişdir. Ödəniş plastik kartlar və poçt bölmələri vasitəsilə pensiyaçılara çatdırılmışdır. Əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi üçün hazırda müvafiq işlər görülür.

Ödənilən məcburi dövlət sosial sığorta haqları sığortaolunanların fərdi uçot sistemində açılmış fərdi şəxsi hesablarına işlənilir. Gələcəkdə pensiya təyinatı aparıldıqda həmin fərdi şəxsi hesabda olan məlumatlar əsas götürülür. Ona görə də vətəndaşlar bilməlidir ki, məcburi dövlət sosial sığortası onların bu günü və gələcəyi üçün təminatdır. Çünki gələcəkdə əmək pensiyası hüququnun yaranması, eləcə də məcburi dövlət sosial sığortası üzrə ödəmələrdən yararlanmaq üçün məcburi dövlət sosial sığortahaqqının ödənilməsi əsas şərtdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***İstehlakçı qüsurlu malı lazımi keyfiyyətli, eyni modelli mala dəyişərkən qiymət fərqini ödəməlidirmi?***

***Cavab:*** İstehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununa əsasən qüsurlu mal lazımi keyfiyyətli, eyni modelli mala dəyişdirilərkən qiymət dəyişərsə, istehlakçı qiymət fərqini ödəmir. Qüsurlu mal lazımi keyfiyyətli, eyni əlamətləri olan, lakin başqa modelli mala dəyişdirilərkən qiymətlər dəyişdikdə, malın dəyəri göstərilən malın alındığı vaxt qüvvədə olmuş qiymətlər əsas götürülməklə yenidən hesablanır.

**Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti**

***İtmişdir***

Babək rayonunun Babək şəhərində yaşayan Rübabə Xanməmməd qızı Hüseynovanın adına olan 232^ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 849